№ 154 (4454) 26 sentyabr 2020-ci il

"ÖYÜD- NƏSİHƏT İNSTİTUTU" MÜASİRLƏŞMƏ SƏVİYYƏSİNƏ UYĞUN FORMALAŞMALI VƏ FƏALİYYƏT GÖSTƏRMƏLİDİR

Müasirlik gerçəklikdə özünü büruzə verir

Qəzetin ötən saylarının birində (nömrə 225, 21 dekabr 2019-cu il) ədəbiyyatda didaktikanın yeri barədə yazını, müəllifdən asılı olmayan (üzürlü) səbəbə görə nəzərdə tutulduğu kimi sonadək tamamlamaq mümkün olmamış və ilkin şərhlə"kifayətlənmişdik. İndi isə həmin mövzunu davam etdirməyi lazım bilirik.

Bu ləngimiş yazıya aydınlıq gətirilməsini "kamil insan və mükəmməl cəmiyyətə nail olmaq mümkündürmü?" - sualının cavabı ilə birgə izah etmək daha müvafiqdir. Belə ki, tarixin hər bir inkişaf mərhələsində qoyulmuş suala müsbət cavab almaq üçün məhz "Öyüd-nəsihət institutu"nun (ÖNİ-nun) vasitəçiliyindən (xidmətindən) istifadə edilir. Müasir fəlsəfə və ədəbiyyatda bu sualla bağlı bəxiş və cavablar ənənəvilərdən bir qədər fərqlənməklə, yeni istiqamətlərdəki tədqiqatlarla davam etdirilir. ÖNİ-nu müasirləşdirmək, təzələmək daha məqsədəuyğun və asandır, nəinki müəyyənliyi (dürüstlüyü) məlum olmayan yeni bir institutun (sistemin) yaradılması. Klassik fəlsəfənin tövsiyyələrini, yanaşmalarını... əsas tutmaqla burada tərəfimizdən baxılan problemin araşdırılmasına diqqət yönəldilir. Ola bilsin ki, bu yazı birmənalı qarşılanmasın. Buna baxmayaraq, dəqiq elmlərin bir nümayəndəsi kimi, bu problem barəsində öz mövqeyimi, fikirlərimi bildirməyi vacib hesab edirəm.

Bu və ya digər hadisəni, prosesi öyrənərkən təbiiq edilən riyazi üsulun yaxud (qaydanın) düzgün seçilməsi vacib olmaqla, sonrakı gedişlərin doğru-dürüst apanılmasında mühüm rol oynayır, gerçəkliyin dəqiq tədqiqini asanlaşdırır, yarana biləcək xətaları azaldır, gözlənilən yekun nəticəyə daha etibarla, inamla baxmağa əlavə zəmanət verir. Bu zaman adətən, prosesin və riyazi üsulun təbiətən, quruluşca bir-birinə uyğun, münasib olmaları əsas götürülür. Ona görə də qabaqcadan demək olar ki, burada baxılan prosesin başa çatması xarakterca uzun müddət tələb edəndir (bunu yekunda Riyaziyyat elmi də təqdir edir).

Dialektik fəlsəfə maraqlı, dərin məzmunlu, dünyaya ən ümumi nəzəri baxışlar sistemi olan elmdir. Fəlsəfə haqiqət haqqında bilikdir, gerçəkliklə sıx əlaqədardır. Elmin yüksəkliyində durmaq istəyən hər bir insan fəlsəfi təfəkkürsüz keçinə bilməz. Fəlsəfə ictimai, o dərəcədə də təbii elmdir. Onu bilmək insana ən mürəkkəb sayılan maneələri, çətinlikləri aradan qaldırmaqda əzmkarlıq, qüvvət, inam, fəallıq... verir.

Bu dünya çox mürəkkəb və rəngarəngdir. Odur ki, bir çox elmlər tərəfindən öyrənilir. Yalnız fəlsəfə ən yüksək ümumiləşdirmə dərəcəsinə çata bilir. Dialektika nöqteyinəzərindən inkişaf sanki spiral üzrə davam edir. Belə bir inkişaf gerçəkliyin bütün sahələrində baş verir.

yrənilən hadisələrə, proseslərə inkişaf nöqteyi-nəzərindən yanaşılsa, onların mahiyyəti anlaşıla bilər.

nkişaf elə bir prosesdir ki, burada yenilik köhnəliyi daim inkar və əvəz edir. Bunsuz inkişaf yoxdur. İdrakın inkişafında elmin bəzi müddəalarının yerini gerçəklik əlaqələrini daha dürüst əks etdirən başqa müddəalar tutur (bu, konkret elmlər üçün də doğrudur)!

Elmi idrakın ən əsas vəzifəsi həqiqəti üzə çıxarmaqdır. Həqiqətə sədaqətli olmaq vicdanla, vətəndaş mərdliyi, əqidə, inamla... sıx bağlıdır. Mütləq mənada həqiqi olan bilik qətidir, dəyişdirilə yaxud təkzib edilə bilməz. Haqiqət prosesdir, fikrin natamam bilikdən dəqiq biliyə doğru hərəkətidir. Ədəbiyyatın öyrənib üzə çıxardığı, müəyyən etdiyi həqiqət nisbi həqiqətlə mütləq həqiqət arasında yerləşir. Riyaziyyatın müəyyən etdiyi həqiqət isə mütləq həqiqətdir. Odur ki, ədəbiyyata riyaziyyatın müdaxilə etməsi düzgün hesab edilir və məqsədəuyğundur.

Bəşər nəslinin yeganə nümayəndəsi kimi düşünən insan dünyada xüsusi yer tutur. İnsan öz hərəkətlərini dərk edə bilir, ətrafdakı gerçəkliyə şüurlu surətdə təsir göstərərək öz təbii və ictimai həyat şəraitini müəyyən məqsəd istiqamətində dəyişdirə bilir. İnsan ictimai varlıqdır, ictimai keyfiyyətlərin daşıyıcısıdır. O, cəmiyyətdə yaşayır, həmişə bu və ya başqa bir kollektivlə əlaqədardır. Hər adamın dünyagörüşü də həmin cəmiyyətdə təhsil, tərbiyə, əmək fəaliyyəti prosesində burada hökm sürən dünyagörüşünün təsiri altında yetişir. Cəmiyyətin bir üzvü olan insan, əvvəlki nəsillər tərəfindən toplanan və həyatda qəbul edilən, dildə, elmdə, mədəniyyətdə, adət-ənənədə,.. qeyd olunan təcrübədən yararlanaraq, dünyanı olduğu kimi dərk etməyə çalışır və ictimai fəaliyyət göstərir. İnsanın daxili mənəvi-psixoloji quruluşu tamlığı ilə normal fəallığa malik olmalıdır. İnsan konkret tarixi zamanda və sosial məkanda, praktiki fəaliyyət və tərbiyə prosesində formalaşır.

Dünyanın fəal surətdə dəyişdirilməsi prosesi insan idrakının, zəkasının yaradıcı rolunu ifadə edir. İnsan əməli surətdə təbiəti, cəmiyyəti dəyişdirərək öz əməyi vasitəsi ilə yeni biliklər yaradır, cəmiyyətin bütün həyatına fəal təsir göstərir və bu zaman özü də dəyişilib inkişafını davam etdirir. İctimai həyatda dərin dəyişikliklər - daxili dəyişmələr, keyfiyyət dəyişmələri baş verir, bunlar başqalaşır, inkişaf edir. Bu, ona görə baş verir ki, dünyada mütləq daimi və dəyişməz heç bir şey yoxdur.

Cəmiyyətdə köhnəlikdən həqiqi yeniliyə keçid həmişə mütərəqqi bir haldır. Həyatda yeniliyin qələbəsi qarşısılanmaz prosesdir, çünki yenilik qanunauyğun surətdə meydana gəlir və köhnəliyə nisbətən daha mükəmməl və yaşamağa daha çox qadir olur.

Həmid KƏSƏMƏNLİ,
Fizika - riyaziyyat elmləri üzrə fəlsəfə doktoru,
AYB-nin üzvü

Tarixin inkişaf prosesində bir ictimai quruluşun yerini başqa, daha yüksək ictimai quruluş tutur. Yəni, cəmiyyət tərəqqi yolu ilə gedir. Bu proses obyektiv surətdə baş verir. Cəmiyyətin tərəqqi yolu ilə ikişafını dayandırmaq mümkün deyildir.

İnsan cəmiyyətinin yaşadığı dövlət (ölkə) müəyyən məfkurəni əsas tutaraq fəaliyyət göstərir. İnsanların cəmiyyətdə davranış normalarını tənzimləmək üçün dövlət tərəfindən bir sıra qanunlar qəbul edilir ki, bunları yerinə yetirmək cəmiyyətin hər bir üzvünün borcudur.

...Dövlətin ali vəzifələrindən, əsl göstəricilərindən bir neçəsini qeyd edək:

A) Tərbiyələndirdiyi insanın siması -

sistematik təhsil, təlim, təsir vasitələri ilə ümumi inkişafın təmin edilməsi; daxili aləmə (mənəviyyata), təfəkkür tərzinə, ictimai hisslərinə təsir edilərək yetişməsi; biliyə, mədəni vərdişlərə, ən gözəl əxlaqa yiyələnməsi; müəyyən adət, ədəb, davranış qaydaları aşılanmaqla böyüməsi; öz xarakteri, əxlaqı, əqidəsi, cəmiyyətdə mövqeyi olub, fəaliyyətini təyin edən xüsusiyyətlərə malik şəxsin yetişməsi...

B) Cəmiyyətin maarifləndirilməsi -

mütəşəkkil surətdə həyata keçirilən tədbirlər sistemi, təlim və təhsil nəticəsində elm, bilik vermək, savadlandırmaq, mədəniyyət vermək (mədəniləşdirmək), ictimai həyatın müəyyən tərəfini özünə məxsus bir surətdə əks etdirən, birbirindən cəmiyyət həyatına göstərdiyi təsirə görə fərqlənən və müxtəlif formalarda təzahür edərək mövcud olan və inkişaf edən ictimai şüurun inkişafına vasitəçilik etmək...

C) Mədəniyyətin arası kəsilmədən yüksəlməsi -

insan cəmiyyətində özünü aparma üsullarına, ədəb qaydalarına yaxşı bələd olmaq; təsərrüfat, istehsal və ya zehni fəaliyyətin inkişaf səviyyəsinin qalxması; tərbiyəlilik, savadlılıq, elmlilik, bilikliliyin davamlı şəkildə diqqətdə saxlanması; mədəni insanın tələblərinə uyğun olan cəmi həyat şəraitinin yaradılması; istehsal sahəsində, ictimai və mənəvi həyatda cəmiyyətin cəmi artan uğurlarına nail olunması...

Bu göstərilənlərin həyata keçirilməsində dövlət büdcəsindən maliyyələşən aidiyyəti təşkilatlar, onların müxtəlif bölmələri,.. əsas icraçılardır. Yazıçılar Birliyinin, daha doğrusu onun üzvlərinin, eləcə də qeyri-dövlət (özəl) təşkilatların, ailələrin, ayrı-ayrı görkəmli, müdrik şəxslərin... bu sahədəki əməli fəaliyyətlərini də nəzərdən qaçırmaq olmaz.

Tarixin müxtəlif pillələrində, ictimai həyatın müəyyən dövrlərində öyüdverici, nəsihətverici, tərbiyə... məqsədi daşıyan (didaktik) bədii əsərlər ədəbiyyatda mühüm, dəyərli yer tuturdusa, rəğbət qazanırdısa, bu heç də təsadüfdən, eləbelə baş vermirdi. Bu hər şeydən öncə cəmiyyətin o vaxtkı təbii inkişafını şərtləndirən təlabələrin diktəsindən, öyüd, nəsihət, tərbiyə... aşılayanlar və götürənlərin (qəbul edənlərin) dünyagörüşündən - həyat, təbiət, cəmiyyət haqqında görüşlər (baxışlar) sistemindən... irəli gəlirdi. İnsanlıq üçün hər zaman vacib sayılan, daima ehtiyac duyulan - mədəniyyət, tərbiyə, təhsil, elm, bilik, axlaq, mənəviyyat, şəxsiyyət, əqidə, ədəb, adət,.. dəyərlər sistemi ilə əlaqədar (aşılayan) yazılmış bədii əsərlərə ehtiyac hər zaman olacaqdır (Əks halda, bədii əsərin hansı dəyərə, əhəmiyyətə malik olması haqda düşünmək özü yersizdir). Həmin dəyərlərin yüksəkdə tutulduğu gerçəklik həmişəyaşardır və onu doğuran zəmini, səbəbləri, şəraiti, imkanı... hər zaman hazırlamaq (yaratmaq) lazımdır!

Əvvəllər özünü pozitiv tərəfdən göstərmiş, uzun illər ərzində müəyyən qədər formalaşmış, müasirləşməsi (təkmilləşməsi) zəruri sayılan ÖNİ-ndan birdəfəlik üz çevirmək, onunla tamam üzülüşmək sadəlövhlük və bəsit münasibət olardı. ÖNİ xarakterli adəkvat bir "təsir mexanizmi" insan cəmiyyəti üçün həmişə lazımdır. Tamam yeni bir institut yaradınca, ələ fəlsəfənin öz tövsiyyələrini, müddəalarını əsas tutaraq, mövcud institutun tələb olunan səviyyədə işləməsini əngəllərən qüsurlardan təmizləmək, hər dövrün tələblərinə uyğun gələnlərini əlavə etmək,... ağlabatan, hər cəhətdən daha əlverişli olardı.

Hazırki dövrdə elmi-texniki tərəqqi, elmi dünyagörüş kifayət qədər yüksəldi. İnsanlar artıq köhnə ənənəvi qaydalar çərçivəsində yaşamağı məqbul hesab etmirlər. Bu səbəbdən, öz vasifəsinin öhdəsindən müəyyən dövrlərdə layiqincə gəlmiş ÖNİ-nun fəaliyyəti də haqlı olaraq tənqidə məruz qalır. Bu çatışmazlığın aradan qaldırılması məqsədilə insanın əvvəllərdəki, istərsə də müasir həyatında vacib rol oynayan - əxlaq, tərbiyə,.. və başqa mənəvi dəyərlər sistemini müqayisəli (idrak üçün həmişə müqayisə zəruridir) şəkildə təhlil etmək (araşdırmaq), lazım gələrsə, onların dəyərləndirilməsinə, yozumlarına yenidən baxmaq gərəkdir. Bu zaman hər inkişaf mərhələsi üçün vacib göstəricilər kimi, müasirliklə bağlı olan - insan cəmiyyətinin nail olduğu ictimai təcrübəni və insanların, cəmiyyətin yüksəldiyi intellektual səviyyəni götürmək məqsədəuyğundur.

Əgər başər tarixinin müxtəlif inkişaf pillələrində ÖNİ-nun fəaliyyətində müntəzəmlik olarsa, onda insan cəmiyyəti də nəhayətdə (axırda) mükəmməllik həddinə çatar (burada apriori qəbul edilir ki, müəyyən şərtlər daxilində kamil insanlardan ibarət olan cəmiyyət mükəmməldir yaxud aksinə).

Məlumdur ki, əvvəlki dövr həmişə bu və ya başqa şəkildə sonrakı dövrün daxilində yaşayır, sonrakı dövr isə hökmən gələcəyin tərkib hissəsi olacaqdır. Bu fikirləri insanın irsiyyəti və onun daşıdığı dəyərlər haqqında da söyləyə bilərik.

Dünyada saniyələr,.. aylar,..yüz illər,..min illər və daha böyük zaman ərzində yetişib, formalaşan müxtəlif təbii hadisələr, proseslər baş verir. Haqqında danışılan "kamil insan və mükəmməl cəmiyyətə nail olmaq" da - özlüyündə, uzun müddət ərzində həyata keçən proseslərdəndir (bunu seçilmiş riyazi üsul (qayda) və sonluq da göstərir). Bu təbii prosesin başa çatması üçün insanlar (başəriyyət) əzmkarlıq edərək, irادə göstərməli və səbrlə, inadla ali məqsədə doğru irəliləməlidir ki, bu yöndə ÖNİ-nun aparıcı rolu danılmazdır.

Beləliklə, yuxarıda yazılanları nəzərə almaqla, insanların, tarixin hansı mərhələsindəki mövcudluğundan asılı olmayaraq, adəkvat səciyyəvi xüsusiyyətlərə malik ÖNİ-dan və müəyyən ictimai-həyati proseslərdən keçən, indiyədək yaşamış və indən sonra yaşayacaq hər bir insan nəslinə sonsuz, kəsilməz (simvolik) riyazi ardıcıllığın bir elementi kimi baxılsa, bu təbii ardıcıllığın sonsuz zamandan (nəzəri olaraq; reallıqda isə uzun müddətdən) sonrakı l i m i t i təyin olunar.

Bəli, kamil insan və mükəmməl cəmiyyətə nail olmaq mümkündür! Bu, uzun müddət ərzində və optimal formalaşmış "Öyüd-nəsihət institutu"nun məqsədyönlü fəaliyyəti (vasitəçiliyi) nəticəsində baş verir.

Buradan həm də çıxır ki, kamil insanlardan ibarət mükəmməl cəmiyyət yaranandək (yetişənədək) ədəbiyyatda didaktikaya (didaktik əsərlərə) ehtiyac (tələbat) olub, var və olacaqdır!